Gəncə Şəhər İcra Hakimiyyəti yanında Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın 2022-ci il üzrə gördüyü işlər barədə

# HESABATI

Gəncə Şəhər İcra Hakimiyyəti yanında Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiya 2022-ci il ərzində öz işini Azərbaycan Respublikasının 2002-ci il 31 may tarixli, 336-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamə"yə və Azərbaycan Respublikası Prezidentinin 8 may 2012-ci il tarixli, 626 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası"nın 2.7.1-2.7.16-cı və 2.8.1-2.8.14-cü bəndlərinə uyğun qurmağa çalışmışdır. Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın tərkibi sədr, məsul katib və uşaqlarla iş üzrə məsləhətçi-psixoloq daxil olmaqla, 11 üzvdən ibarətdir. Komissiyanın illik iş planı tərtib edilmiş, keçirilən iclaslar protokollaşdırılmışdır.

Gəncə Şəhər İcra Hakimiyyəti yanında Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiya Gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə monitorinq qrupu tərəfindən yaradılmış işçi qrupunun iştirakı ilə yetkinlik yaşına çatmayanların təhsildən yayınmasının və hüquq pozuntularının profilaktikası məqsədi ilə Gəncə Şəhər Baş Polis İdarəsində fərdi profilaktik qeydiyyatda olan risk qrupuna aid yetkinlik yaşına çatmayanların, övladlığa, qəyyumluğa və himayəyə verilmiş uşaqların ailələrinə hər ay nəzarət xarakterli monitorinqlər keçirmişdir.

İl ərzində mütəmadi olaraq uşaqlara qarşı hər cür zorakılığın mənfi nəticələri və zorakılığa qarşı mübarizə məqsədilə "Gender bərabərliyi - sağlam həyat tərzidir", "Azərbaycan ailə modeli: dəyərlər və ənənələr", "Erkən nikah və onun fəsadları", "İntihar çıxış yolu deyil", "Mən və hüquqlarım", "Uşaq hüquqlarının qorunması", "Narkomaniyaya YOX deyirik!" və digər mövzularda Gəncə şəhər ümumtəhsil, dövlət uşaq müəssisələrində maarifləndirmə tədbirləri təşkil olunmuşdur.

Gəncə Şəhər İcra Hakimiyyəti, Gəncə Şəhər Baş Polis İdarəsi və Gəncə-Daşkəsən Regional Təhsil İdarəsi tərəfindən təsdiq edilmiş "Gəncə şəhər ümumtəhsil məktəblərində yetkinlik yaşına çatmayanlar arasında 2021/2022-ci tədris ilində keçiriləcək maarifləndirici tədbirlərin qrafiki"nə müvafiq olaraq təhsil müəssisələrində, Gəncə şəhər Məktəbəqədər və Məktəb Yaşlı Uşaqlar üçün Qarışıq Tipli Uşaq Evində, "SOS Uşaq Kəndləri Azərbaycan" Assosiasiyası Gəncə şəhər filialında uşaq hüquqları, narkomaniya və erkən nikah hallarına qarşı mübarizə, sağlam həyat tərzinin təbliği, uşaqların təhsildən yayınması hallarının qarşısının alınması və digər mövzularda uşaqlar, valideynlər və müəssisə rəhbərlərinin iştirakı ilə maarifləndirici tədbirlər keçirilmişdir. Eyni zamanda bu tədbirlərin həyata keçirilməsi zamanı Gəncə Şəhər Gənclər və İdman Baş İdarəsi, "Gəncə Şəhər Birləşmiş Xəstəxanası" PHŞ-nin mütəxəssisləri, müvafiq ictimai birliklərin nümayəndələri ilə də sıx əməkdaşlıq edilmişdir.

Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın Gəncə-Daşkəsən Regional Təhsil İdarəsi, "Gəncə Şəhər Birləşmiş Xəstəxanası" PHŞ,

Gəncə Regional Mədəniyyət İdarəsi, Gəncə Şəhər Gənclər və İdman Baş İdarəsi və Gəncə Şəhər Baş Polis İdarəsinin İctimai Təhlükəsizlik Bölməsinin Yetkinlik yaşına çatmayanlarla profilaktiki işin təşkili qrupunun rəhbərlərinin iştirakı ilə keçirilən iclaslarında əsasən, yetkinlik yaşına çatmayanlar tərəfindən törədilmiş hüquq pozuntularının səbəbləri, təhsildən yayınma halları, Gəncə şəhər Məktəbəqədər və Məktəb Yaşlı Uşaqlar üçün Qarışıq Tipli Uşaq Evində yetkinlik yaşına çatmayanların saxlanılması və tərbiyə olunması şəraitinin yaxşılaşdırılması məqsədi ilə monitorinqlərin keçirilməsi barədə, yetkinlik yaşına çatmayanlar arasında erkən nikah hallarının qarşısının alınması haqqında, "Gəncə şəhər ümumtəhsil məktəblərində yetkinlik yaşına çatmayanlar arasında 2021/2022-ci tədris ilində keçiriləcək maarifləndirici tədbirlərin qrafiki"nin təsdiq edilməsi haqqında, komissiyanın 2022-ci ildə həyata keçirdiyi tədbirlər, 2023-cü il üçün iş planının təsdiq edilməsi haqqında və digər məsələlər müzakirə edilmiş, qəbul olunmuş qərarların icrası təmin edilmişdir.

Gəncə-Daşkəsən Regional Təhsil İdarəsinin tabeliyində olan ümumtəhsil müəssisələrində, habelə Xarici dillər, Futbol təmayüllü və İnteqrasiya təlimli internat tipli gimnaziyalarda yetkinlik yaşına çatmayanlar arasında noyabr və may aylarında tərbiyə və dərslərin davamiyyəti işlərin təşkili yoxlanılmışdır.

Uşaqların tərbiyə aldığı və saxlandığı dövlət uşaq müəssisələrində, Gəncə şəhər Məktəbəqədər və Məktəb Yaşlı Uşaqlar üçün Qarışıq Tipli Uşaq Evi və "SOS Uşaq Kəndləri Azərbaycan" Assosiasiyasının Gəncə şəhər filialında il ərzində yetkinlik yaşına çatmayanların saxlanılması və tərbiyə olunması şəraiti ilə tanış olunmuş, 4 dəfə monitorinq keçirilmiş, pozuntu halları müəyyən edilməmişdir.

Komissiya tərəfindən yetkinlik yaşına çatmayanların açıq tipli xüsusi təlim-tərbiyə müəssisəsinə göndərilməsi halı olmamış, qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsinə göndərilməsi barədə 1 hadisə ilə bağlı məhkəmə qarşısında vəsatət qaldırılmışdır.

Eyni zamanda komissiyaya cəzaçəkmə, açıq və ya qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsindən buraxılmış yetkinlik yaşına çatmayanların müraciətləri, yetkinlik yaşına çatmayanlarla bağlanmış əmək müqaviləsi ilə əlaqədar müraciətlər daxil olmamışdır.

Uşaqların hüquqlarını pozan və onları qanunazidd əməllər törətməyə təhrik və cəlb edən 1 hal müəyyən edilmiş, valideynlik hüquqlarının məhrum edilməsi ilə əlaqədar müvafiq qaydada məhkəməyə müraciət edilmişdir.

İl ərzində Gəncə Şəhər Baş Polis İdarəsi tərəfindən inzibati məsuliyyətə cəlb olunmuş 37 nəfər yetkinlik yaşına çatmayanın, inzibati protokol tərtib edilmiş 2 nəfər yetkinlik yaşına çatmayanın valideyninin barəsində komissiyada qərar qəbul olunmuşdur.

2022-ci ildə Gəncə şəhəri üzrə insan alverinin qurbanı olmuş uşaq qeydə alınmamış və insan alverinin qurbanı olmuş uşaqlarla bağlı komissiyaya müraciət daxil olmamışdır. Bununla yanaşı, yetkinlik yaşına çatmayan uşaqlar arasında Gəncə Şəhər İcra Hakimiyyəti yanında Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiya Gəncə Şəhər Baş Polis İdarəsi və "Təmas" Regional İnkişaf İctimai Birliyinin nəzdində fəaliyyət göstərən "İnsan alveri və İnsan Alverinin Potensial Qurbanlarına Xidmət Göstərən Regional Reabilitasiya Reinteqrasiya Mərkəzi" ilə birlikdə qrup və fərdi şəkildə profilaktik söhbətlər aparmış, maarifləndirici bukletlərin hazırlanması üzərində çalışmışdır.

Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olan uşaqların yaşayış yeri və olduğu yer üzrə qeydiyyatdan çıxarılmasına razılıq verilməsi məsələsi ilə bağlı komissiyaya müraciət daxil olmamışdır.

2022-ci il üçün Gəncə şəhər Məktəbəqədər və Məktəb Yaşlı Uşaqlar üçün Qarışıq Tipli Uşaq Evi və "SOS Uşaq Kəndləri Azərbaycan" Assosiasiyası Gəncə şəhər filialında 18 yaşı tamam olub kimsəsiz və mənzilə ehtiyacı olan məzun olmamışdır. Ümumilikdə, il ərzində uşaq evinin məzunu olmuş 7 şəxs Gəncə Şəhər İcra Hakimiyyətində yaşayış sahəsinə ehtiyacı olan qismində mənzil uçotuna alınmışdır.

Yetkinlik yaşına çatmayanların təhsili və tərbiyəsi məsələləri ilə bağlı, o cümlədən çətin tərbiyə olunan və təhsildən yayınan şagirdlərlə aparılan işin səmərəli təşkili üçün müvafiq tədbirlərin həyata keçirilməsi barədə Gəncə-Daşkəsən Regional Təhsil İdarəsinə tövsiyələr verilmiş və icrası nəzarətə götürülmüşdür.

Aztəminatlı ailələrə yönəlmiş dəstək və məşğulluq tədbirlərinin gücləndirilməsi, həmin ailələrdən olan uşaqların davamlı təhsil hüququnun təmin edilməsi istiqamətində tədbirlər görülməsi məqsədilə Gəncə Şəhər İcra Hakimiyyəti tərəfindən 2022-ci il ərzində aztəminatlı ailələrdə yaşayan bir qrup məktəb yaşlı uşaqlara məktəbli geyimi, məktəb ləvazimatları almaq üçün maddi yardım göstərilmiş, bir neçə uşağa kompüterlər alınmışdır. Eyni zamanda idman sahəsində uğurlar əldə etmiş bir neçə idmançı uşağa maddi köməklik göstərilmişdir.

Hesabat dövrü ərzində Qəyyumluq və Himayəçilik komissiyası öz fəaliyyətini "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununun əsasında qurmuş və Azərbaycan Respublikası Prezidentinin 29 mart 2006-cı il tarixli, 1386 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (De-institusionalizasiya) və alternativ qayğı Dövlət proqramının (2006-2015-ci illər üçün) icrası ilə bağlı valideyn himayəsindən məhrum olmuş uşaqların ailələrə verilməsinə, valideynlər tərəfindən uşaqlarının uşaq evlərinə və digər analoji müəssisələrə yerləşdirilməsinin qarşısının alınmasına yönəltmişdir.

2022-ci il ərzində 4 nəfərə himayəçi, 34 nəfərə qəyyum təyin olunmuşdur.

Uşaqların sosial müəsisələrə yerlədirilməsi və xaric olunması ilboyu aparılır. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində fəaliyyət göstərən DOST mərkəzində müəssisələrə daxil və xaric olan uşaqların elektron formada qeydiyyatı aparılır, uşaqlar haqqında bütün məlumatlar elektron sistemə yerləşdirilir, aylıq məlumat verilir. Uşaqların övladlığa verilməsinin DOST mərkəzində elektron uçotu aparılır. Övladlığa verilən uşaqlarla bağlı ildə iki dəfə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əməkdaşları tərəfindən monitorinq aparılır, onların təhsili, sağlamlığı, yaşayış şəraiti ilə maraqlanılır.

Məhkəmədə olan mülki işlərlə əlaqədar valideynlər arasında uşağın adına və soyadına münasibətdə yaranan fikir ayrılığına dair, uşaqların hüquqlarının və mənafeyinin müdafiəsi üçün nümayəndə təyini ilə bağlı müraciət daxil olmamış, uşağın sağlamlığı və ya həyatı birbaşa təhlükədə olduqda, Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq, uşağı valideynlərdən (onların birindən) və ya onu qəyyumluğa (himayəyə) götürmüş şəxslərdən təcili olaraq almaq üçün zəruri yaranan hal aşkar edilməmişdir.

Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olan uşaqların bir təhsil müəssisəsindən digərinə keçirilməsinə, ümumi orta təhsil alana qədər təhsilalma formasının dəyişdirilməsinə, istənilən təhsil müəssisəsindən kənar edilməsinə razılıq verilməsi ilə bağlı komissiyaya müraciət daxil olmamış, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olan 15 uşağın əmlak hüququ təmin edilmişdir.

2022-ci ilin 12 ayı ərzində 229-u qız, 473-ü oğlan olmaqla, 702 yetkinlik yaşına çatmayan şəxs müəyyən hüquqpozmalara görə Gəncə Şəhər Baş Polis İdarəsinin tabeli orqanları olan şöbə və bölmələrə gətirilmişdir. Gətirilmiş şəxslərdən 37 nəfər inzibati məsuliyyətə cəlb olunmuşdur. Gəncə Şəhər Baş Polis İdarəsi tərəfindən komissiyaya göndərilmiş materialların sayı 8, sosial və təhsil orqanlarına göndərilmiş materialların sayı 2, yetkinlik yaşına çatmayanlarla bağlı valideynlərə qarşı tətbiq edilən inzibati protokolların sayı 2 olmuşdur.

Hesabat ilinin sonuna 15 yetkinlik yaşına çatmayan şəxs Gəncə Şəhər Baş Polis İdarəsində profilaktiki qeydiyyatda durmuşdur. Profilaktiki qeydiyyatda olanlara mütəmadi olaraq hər ay xidmətin inspektorları tərəfindən nəzarət olunur və onlarla yaşadıqları ünvanda valideynlərinin iştirakı ilə profilaktiki söhbətlər aparılır. Ümumiyyətlə, komissiya nəzarətsiz qalan yetkinlik yaşına çatmayanların vaxtında müəyyən edilməsi, onların nəzarətə götürülməsi, azyaşlılar tərəfindən hüquqpozmaların və cinayətlərin qarşısının alınması, onların hüquqlarının və qanuni mənafelərinin müdafiəsi işində iştirak etmişdir.

18 yaşdan aşağı nikaha daxil olanların sayı 6 nəfər olmuşdur.

Gəncə şəhərində hazırda uşaqlar üçün iki sosial xidmət müəssisəsi - Gəncə şəhər Məktəbəqədər və Məktəb Yaşlı Uşaqlar üçün Qarışıq Tipli Uşaq Evi və “SOS Uşaq Kəndləri Azərbaycan” Assosiyasiyası Gəncə şəhər filialı fəaliyyət göstərir. Gəncə şəhər Körpələr Evi isə əsaslı təmir olunması ilə əlaqədar olaraq, fəaliyyətini qeyri-müəyyən vaxtadək dayandırmış, orada olan körpələr digər körpələr evlərinə yerləşdirilmişdir.

Hesabat dövrü ərzində 5 uşaq “SOS Uşaq Kəndləri Azərbaycan” Assosiasiyası Gəncə şəhər filialının Uzun Müddətli Ailə Qayğı Lahiyəsinə, 4 uşaq Qısa Müddətli Qayğı Lahiyəsinə, 20 uşaq Gəncə şəhər Məktəbəqədər və Məktəb Yaşlı Uşaqlar üçün Qarışıq Tipli Uşaq Evinə, 3 azyaşlı Gəncə Körpələr Evi təmirə dayandığı üçün Bakı şəhərinin müvafiq müəssisələrinə yerləşdirilmişdirlər.

3-18 yaş arası 69 nəfər valideyn himayəsindən məhrum olmuş uşağın təlim-tərbiyə aldığı Gəncə şəhər Məktəbəqədər və Məktəb Yaşlı Uşaqlar üçün Qarışıq Tipli Uşaq Evinə hesabat dövrü ərzində 20 uşaq yerləşdirilmiş, 22 uşaq isə xaric olunmuşdur. Onlardan 20-si ailəsinin himayəsinə, 2-si övladlığa verilmişdir.

Gəncə Şəhər İcra Hakimiyyətinin tabeliyində olan Gəncə şəhər Məktəbəqədər və Məktəb Yaşlı Uşaqlar üçün Qarışıq Tipli Uşaq Evində yaşayan uşaqlardan 1 nəfəri Sənaye və Texnologiyalar üzrə Gəncə Dövlət Peşə Təhsil Mərkəzində, 3 nəfəri 1 saylı Ticarət və Xidmət üzrə Gəncə Dövlət Peşə Təhsil Mərkəzində, 1 nəfəri İqtisadiyyat Nazirliyinin İqtisadi Zonaların İnkişafı Agentliyinin nəzdində Peşə Təhsil Mərkəzində əyani təhsil alır.

Hesabat dövrü ərzində 5 azyaşlı “SOS Uşaq Kəndləri Azərbaycan” Assosiasiyası Gəncə şəhər filialının Uzun Müddətli Ailə Qayğı Lahiyəsinə qəbul olunmuş, 1 uşaq layihəni tərk etmiş, 4 azyaşlı Qısa Müddətli Qayğı Lahiyəsinə yerləşdirilmişdir. 2022-ci

ildə “SOS Uşaq Kəndləri Azərbaycan” Assosiasiyası Gəncə şəhər filialının Günərzi layihəsinə 30 azyaşlı cəlb olunmuşdur.

Gəncə şəhər Məktəbəqədər və Məktəb Yaşlı Uşaqlar üçün Qarışıq Tipli Uşaq Evi və “SOS Uşaq Kəndləri Azərbaycan” Assosiasiyası Gəncə şəhər filialında hər rübdə monitorinqlər aparılmış, hər hansı bir nöqsan aşkar edilməmişdir.

Hesabat dövrü üzrə komissiyada övladlığa götürmənin ləğvi üzrə işlərə baxılmamışdır.

Gəncə şəhərində yetkinlik yaşına çatmayanların asudə vaxtlarının səmərəli keçirilməsi üçün bir sıra tədbirlər görülmüşdür. Gəncə şəhər Məktəbəqədər və Məktəb Yaşlı Uşaqlar üçün Qarışıq Tipli Uşaq Evinin və “SOS Uşaq Kəndləri Azərbaycan” Assosiasiyası Gəncə filialının uşaqlarının asudə vaxtlarının səmərəli təşkili üçün ekskursiyalar təşkil olunmuşdur. Şəhər rəhbərliyi tərəfindən “1 iyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü” ilə əlaqədar Gəncə şəhər Məktəbəqədər və Məktəb Yaşlı Uşaqlar üçün Qarışıq Tipli Uşaq Evində məskunlaşan uşaqlar ziyarət olunmuş və onlara bayram hədiyyələri verilmişdir.

Uşaqların asudə vaxtlarının səmərəli təşkili üçün şəhərdə 2 futbol meydançası yenidən qurulmuş, mədəniyyət müəssisələri, musiqi məktəbləri, muzeylərdə və uşaq kitabxanasında müxtəlif tarixi günlər və mövzularla bağlı tədbirlər həyata keçirilmişdir.

Uşaqların vətənpərvərlik və milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi istiqamətində Gəncə şəhərinin ümumtəhsil, mədəniyyət, idman və uşaq müəssisələrində mütəmadi olaraq mədəni, kütləvi tədbirlər keçirilmişdir. Bu tədbirlər çərçivəsində məktəblərdə Vətən müharibəsi iştirakçıları ilə görüşlər təşkil olunmuş, şagirdlərin Şəhidlər Xiyabanına, eyni zamanda Gəncənin Ermənistan silahlı qüvvələri tərəfindən raket atəşinə tutulması nəticəsində dağılan ərazilərə ziyarətləri təşkil olunmuşdur. Bununla yanaşı, 44 günlük Vətən müharibəsində əldə olunmuş tarixi zəfərlə bağlı “Qarabağ Azərbaycandır!”, “Şuşa - türk dünyasının mədəniyyət paytaxtı”, “Qalib xalq” və digər mövzularda rəsm, şeir və inşa müsabiqələri keçirilmişdir. Gəncə şəhərinin ümumtəhsil məktəblərində təhsil alan şagirdlər ümumşəhər tədbirlərində də aktivlik nümayiş etdirmişdirlər.

Onu da qeyd edək ki, uşaqların maraqlarına toxunan məsələlərdə onların iştirakının təmin olunması, eləcə də uşaqlarda müstəqil özünü ifadə etmə bacarığının, idarəetmə mədəniyyətinin formalaşması məqsədilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən yaradılan “Uşaq Səfirlər Məclisi”nə Gəncə şəhərindən 2 məktəbli nümayəndə seçilmişdir.